# Heydər Əliyevin humanizm siyasətinin təntənəsi

***Bu** il xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edir, əziz xatirəsini dərin ehtiramla anırıq. Milli dövlətçiliyimizin möhkəmlənləndirilməsində, demokratik, hüquqi dövlət quruculuğunda müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyev həm də insan hüquqlarının ən böyük təminatçısı idi.*

Ümummilli lider insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək ədalət və qanunçuluq prinsiplərini dövlətin və cəmiyyətin inkişafının başlıca qayəsi hesab edir, xalqı nəcib amallar naminə birləşdirmək, ictimai şüurda pozitiv dönüş yaratmaq üçün mühüm və qətiyyətli addımlar atırdı.

Cəmiyyətdə milli birlik və həmrəyliyin əsasını təşkil edən bu prinsipləri dövlət siyasətinin tərkib hissəsinə çevirən dahi rəhbər Heydər Əliyev haqqın, ədalətin carçısı, dürüstlüyün, düzgünlüyün tərəfdarı olmuşdur. Ulu öndər hələ sovetlər birliyində Azərbaycana rəhbərliyi dövründə ədalət, qanunçuluq və hüququn təmin olunması ilə bağlı cəsarətli addımlar atmış, bu prinsipləri dövlət və hüquq-mühafizə orqanlarının başlıca meyarı hesab etmişdir.

Müstəqilliyimizin bərpasından sonra yenidən hakimiyyətə qayıdan ümummilli lider ölkədə anarxiya və xaosun hökm sürməsinə, qanunsuz cinayətkar dəstələrin mövcudluğuna baxmayaraq, "ədaləti ədalətsizliklə bərpa etmək olmaz", - deyərək humanizm prinsiplərinin tətbiqi ilə bağlı əhəmiyyətli addımlar atmışdır.

Ümummilli lider ölkə rəhbərliyinə qayıdışından dərhal sonra insanın yaşamaq hüququnun təmin olunması məqsədilə ölüm cəzasının icrasına moratorium qoymuşdur. Eyni zamanda Heydər Əliyevin humanistliyi sayəsində o dövrdə vətən və xalq qarşısında ən ağır cinayətlər törətmiş, ölkəni parçalamağa və dövlət çevrilişinə cəhd etmiş təhlükəli şəxslər barəsində də ölüm hökmü tətbiq olunmamışdı.

Dahi öndərin bu qətiyyətli addımı sayəsində vətəndaşların yaşamaq hüququna əsaslı təminat verilmiş, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi ilə bağlı görülən işlər, o cümlədən Cinayət Məcəlləsinin ölüm cəzasını nəzərdə tutan maddələrin sanksiyalarından bu cəzanın çıxarılması, qadınlara, 65 yaşına çatmış kişilərə ölüm cəzasının tətbiqinin qadağan edilməsi Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesinə əvəzsiz töhfə olmuşdur.

Ulu öndər 1998-ci il fevralın 3-də ölüm cəzasının ləğvi ilə bağlı bəyanatında deyirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Ümummilli liderin bu humanist addımı Milli Məclis tərəfindən dəstəklənərək fevralın 10-da ölüm cəzası birdəfəlik ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi olmuşdur.

Ümummilli lider Heydər Əliyev tərəfindən ölkədə əfv və amnistiya institutlarının bərpa olunaraq tətbiqinə başlanılması da onun humanist siyasətinin növbəti təntənəsi olmuşdur. O vaxtdan Prezidentin müstəsna səlahiyyətlərinə aid olan əfv, habelə amnistiya aktlarının imzalanması davamlı xarakter almışdır. Təsadüfi deyil ki, 1995-2003-cü illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 32 əfv fərmanı, 7 amnistiya aktı imzalanmış, həmin dövrdə on minlərlə məhkum bağışlanaraq müxtəlif, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad edilmişdir. Beləliklə, ölüm cəzasının ləğvi, humanist aktların qəbulu ciddi tərbiyəvi məzmun kəsb edərək qanunçuluğa, haqqa və ədalətə inam hissini artırmış, ölkədə cinayətkarlığın dinamikasının azalmasına öz müsbət təsirini göstərmişdir.

Məlum olduğu kimi, törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə bağlı müraciətlərinə daim həssaslıqla yanaşılır, onlar zaman keçdikdə cəzalarının çəkilməmiş hissəsindən tam və ya qismən azad edilirlər. Ulu öndərin möhkəm təməllər üzərində qoyduğu humanizm siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Dövlət başçısının prezidentliyi dövründə əfvetmə institutunun çevik və işlək mexanizmlər əsasında fəaliyyəti təmin olunaraq demək olar ki, hər il humanist aktlar qəbul olunur, çoxsaylı məhkumlar bağışlanaraq azadlığa buraxılırlar.

Dahi öndərin humanist siyasətinin davamı olaraq ölkə Prezidenti tərəfindən 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam xüsusi qeyd olunmalıdır. Sərəncamın icrası nəticəsində cəza siyasəti xeyli humanistləşdirilərək cinayət qanunvericiliyi əsaslı surətdə dekriminallaşdırılmış, azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi genişləndirilmiş, yeni cəza növü təsbit olunmuş, azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəzetmə və cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azadetmə institutu geniş tətbiq edilmişdir. Bununla bağlı həmin institutun tətbiqində şəffaflığın və obyektivliyin təmin edilməsi məqsədilə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində xüsusi komissiya fəaliyyət göstərir və onun işinə ictimaiyyətin nümayəndələri də daim geniş şəkildə cəlb olunurlar.

Bu gün Azərbaycan dövləti özünün qüdrətli dövrünü yaşayır, ulu öndərin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirən dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş doğma torpaqlarımız yenidən dirçəldilir. Müasir tariximizin ən şanlı dövrünü yaşadığımız bu illərdə cənab Prezident İlham Əliyev tərəfindən Vətən müharibəsində Böyük qələbəmizin birinci ildönümü münasibətilə Zəfər Amnistiyası qəbul olunmuş və müstəqillik tariximizin ən böyük humanist aktlarından olan həmin amnistiya 17 mindən çox şəxsə tətbiq edilmişdir.

Ümummilli liderin xatirəsini əbədiləşdirmək üçün yaradılmış, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun mühüm fəaliyyətini qeyd etməmək mümkün deyil. Fondun həyata keçirdiyi çoxşaxəli layihələri birləşdirən əsas ortaq xətt məhz yüksək humanizm və insanpərvərlikdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva amnistiya təşəbbüsü ilə çıxış edərək qəbul olunan hər bir amnistiya aktını humanizm prinsiplərinin, ideyalarının qələbəsi kimi dəyərləndirərək deyir: "Əsası dahi Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət nəticəsində minlərlə insan azadlığa buraxılaraq normal həyata qayıdıb və bu gün də bu ənənələr davam edir. Allah vergisi olan insan ömrü hər bir şeydən uca və dəyərlidir. Hər bir insan ləyaqətlə və azad yaşamağa layiqdir. Eyni zamanda hər bir insan öz ömrünün, öz taleyinin hökmdarıdır. Səhv etmiş, yolunu azmış insanlara həyatda yeni şans verməklə, onları bağışlayıb cəmiyyətimizə qaytarmaqla biz onlara yenidən həyatın, azadlığın dəyərini dərk etməyə, öz səhvlərini anlayıb doğru yola qayıtmağa kömək edirik. Hər zaman mərhəmətlilik, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı ən ali və insani keyfiyyətlər kimi qiymətləndirilib".

Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə elan edilmiş amnistiya aktı və digər dövrlərdə qəbul olunmuş belə humanist qərarlar 40 mindən çox şəxsə şamil edilmişdir.

Dövlət başçısının Sərəncamı ilə elan olunmuş 2023-cü il "Heydər Əliyev İli"ndə 100 illiyini qeyd etdiyimiz ulu öndərin yüksək humanizm siyasəti bu gün də uğurla davam etdirilir, ümummilli liderin yubileyi münasibətilə ölkə Prezidentinin mayın 8-də imzaladığı növbəti Əfv Sərəncamı müstəqillik tariximizin ən böyük əfv aktı olmaqla 801 nəfər məhkuma şamil olunmuş və İnsan hüquqları üzrə müvəkkilin, deputatların, ictimaiyyətin, medianın iştirakı ilə dərhal icra olunmuşdur.

Cəmiyyətimiz tərəfindən böyük rəğbətlə qarşılanan dövlət başçısının növbəti humanist addımı cinayət törətmiş şəxslərin cəmiyyətə yenidən inteqrasiya olunmasına xidmət etməklə, haqqa və ədalətə inamı daha da artırır.

Bir daha əminliklə söyləyə bilərik ki, bütün bunlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin humanizm ənənələrinə sadiqliyin bariz nümunəsi olmaqla ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verir, insan ləyaqətinə hörmət və ehtiramı, bütünlükdə ölkəmizdə demokratiyanın inkişafını nümayiş etdirir, xalqımızda nikbin gələcəyə inam yaradır.

**Orxan QASIMOV,**
**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəis müavini, ədliyyə general-mayoru.**